Ömərlə bir qutu macəra

# Əl-Xarəzmi

Betülnur Aybegüm Taslı & Dilara Sevgili

Gəncliyə Yardım Fondu

T.C. KÜLTÜR VE TURİZM BAKANLIĞI
YURTDIŞI TÜRKLER VE AKRABA
TOPLULUKLAR BAŞKANLIĞI

Bu kitab, Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqraba İcmalar İdarəsi (YTB) və Gəncliyə Yardım Fondunun (GYF) iş birliyi ilə həyata keçirilən "Hər Uşaq Bir Çinardır" layihəsi çərçivəsində hazırlanmışdır.

Kitabın Orjinal Adı:
Harizmi

Müəlliflər:
Betülnur Aybegüm Taslı & Dilara Sevgili

Azərbaycanda Nəşrə Hazırlayan:
Dr. Abbas Qurbanov

Anadolu Türkcəsindən Azərbaycan Türkcəsinə uyğunlaşdıran:
Mehriban Əbdürrəhimova

Redaktor:
Əziz Sultan

Rəssam:
Thukaa Kebriteh

Dizayner:
Ali Kocabıyık
Nicat Qəribov

**Bu kitabın ilk nəşri Kaşif Çocuk Yayınları tərəfindən həyata keçirilmişdir.**

**Kitabın səsli versiyasını www.usaqkitabi.az saytından dinləyə bilərsiniz.**

Bakı-2022; İpəkyolu Nəşriyyatı: 324-079
İSBN: 978-605-80184-5-7

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16
Tel: (+994 12) 492 14 38
Mobil: (+994 51) 412 22 82
Web sayt: www.ipekyolunesriyyati.az
Elektron poçt: ipekyoluneshriyyati@gmail.com

**HÖRMƏTLİ OXUCU,**

**"RƏHBƏR ELM ADAMLARI"** silsilə kitabları, etdiyi ixtiralarla və ya kəşflərə verdiyi dəstəklə elm tarixinə işıq tutan alimlərimizi tanıtmaq məqsədilə hazırlanmışdır.

Alimlərin, ixtiraların və texnoloji inkişaf mərhələsinin uşaqlar, yeniyetmələr və gənclər üzərində daim müsbət təsiri olmuşdur. Bu səbəblə də alimlərimizin həyatlarını macəralı bir həyatın içində göstərməyə çalışdıq.

Hekayənin qəhrəmanı Ömər, babasının evinin çardağında tapdığı sirli qutunu açaraq oradan çıxan xəritədəki ulduza toxunur. Qutunun macərası ilə keçmişə səyahət edən Ömər, o anda ən parlaq ulduzun olduğu yerə gedir.

Həmin bölgədə yaşamış və bütün dünyada kəşfləri ilə məşhur olmuş alimin tədqiqat mühitində qonaq olur. Ömər onu qonaq edən alimin kəşfləri və elm dünyasına qazandırdıqlarını yaxından tanımaq imkanı əldə edir.

Macəra ilə dolu bu sirli səyahətində qəhrəmanımız çox əhəmiyyətli məlumatlar öyrənərək evə qayıdır və özünü çox xoşbəxt hiss edir.

**READƏR – YƏNİ QABAQCIL ELM ADAMLARI DƏRNƏYİ** tərəfindən hazırlanan bu layihə böyük bir heyət tərəfindən icra olunur.

Məqsədimiz elm tariximizdə zəhməti olan böyük insanları bütün dünyaya və gələcək nəsillərə tanıtmaq, yaxşı işlər görən insanları daim yaşatmaqdır.

Yaxşı oxuyan, oxuduqca fəallaşan, bəşəriyyətin xeyirli və məziyyətli gələcəyi üçün elmi tədqiqatla məşğul olan və elm həvəskarı gənclər olmağınız təmənnası ilə.

**XOŞ MÜTALİƏLƏR.**



ƏL-XARƏZMİ








İlk səyahətimdən və babamın qutunu istədiyim vaxt yox, yeni bir kəşf səyahətinin vaxtı çatanda aça biləcəyimi deməsinin üstündən təqribən dörd gün keçmişdi. Mən böyük ümidlə hər gün çardağa çıxsam da hər dəfə əli boş qayıdırdım. Hiss edirdim ki, tez-tez çardağa çıxmağım anamı narahat edir. Amma vəziyyətdən babamın xəbərdar olması anamın narahatlığını azaldırdı. Anam rahat olsa da, o möhtəşəm qutunu açmadıqca

mən rahat ola bilmirdim.

Yenə belə günlərdən birində səhərdən bir neçə dəfə çardağa çıxmanın yollarını axtarmışdım. Dalbadal bir neçə uğursuz cəhddən sonra günortadan sonra anamın mətbəxdə yemək hazırlamasından istifadə edərək çardağa çıxan pilləkanla səssizcə addımladım. **SONRA DİQQƏTLƏ GİZLƏTDİYİM QUTUNU GÖTÜRDÜM.**



Qutunu açmaq üçün qapa-



ğını qaldırdım. Qapaq açılan anda böyük bir sevinc yaşadım. Sevinclə dərhal xəritəni açıb, həyəcanla üzərində parıldayan ulduzu gözlədim.

Yaşadığım ölkə, Türkiyənin cənub şərqində bir ulduzun parıldadığını gördüm. **DƏRHAL ƏLİMİ ULDUZUN ÜSTÜNƏ QOYARAQ GÖZLƏRİMİ YUMDUM.**

Gözlərimi açanda başqa bir aləmdə idim. Elə bil, bir az əvvəl çardaqda deyilmişəm kimi üfüqə tərəf





uzanan bir çayın kənarında sarı və isti bir yerdə dayanmışdım. Toxunduğum parlaq ulduz məni hara gətirmişdi belə? Əvvəl gözlərimə inanmasam da, indi olduğum yer açdığım qutunun içindən çıxan xəritə ilə başladığım kəşf səyahətinin ikinci dayanacağıydı. Təəccüblə ətrafımı tanımaq üçün sağa-sola baxarkən sahibinin yanında yerə çökmüş bir dəvə gördüm. Ətrafda dəvə ilə sahibindən başqa heç kim yox idi. Bu səbəblə də başa düşdüm ki, onların yanına getməkdən başqa yol yoxdur. Utancaq və həyəcanlı bir səslə soruşdum:

– MƏN HARADAYAM, BURA HARADIR? SİZ KİMSİNİZ? BU HANSI ÇAYDIR?

Qarşımdakı şəxs tələşlı olduğum qədər hər şeylə maraqlanan halımı görüb gülümsədi. Sanki uzun müddətdir məni

gözləyirdi. Bir anda sevincini gizləyə bilmədi, amma dərhal da ciddiləşdi. Bütün səmimiyyəti ilə cavab verdi:

– BİR DAYAN, AY OĞLAN, NƏFƏS AL, GÖRƏK. NİYƏ BU QƏDƏR TƏƏCCÜBLƏNMİSƏN? BURA İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI BAĞDADDIR. BU DA DƏCLƏ ÇAYIDIR. MƏNİM ADIM İSƏ ƏL-XARƏZMİDİR.

– Əl-Xarəzmi? – deyə həyəcanla soruşdum. Elə bil, bu adı daha əvvəl hardasa eşitmişdim. Səssizliyimdən istifadə edən Əl-Xarəzmi qaldığı yerdən danışmağa davam etdi:

XƏZƏR DƏNİZİNİN ŞƏRQİNDƏKİ XARƏZM ŞƏHƏRİNDƏ YAŞADIĞI ÜÇÜN ƏL-XARƏZMİ KİMİ TANINMIŞDIR.

– Sən ulduzlu qutunu açaraq parlaq ulduzları görmək qabiliyyətinə malik, buraya gəlməyə layiq olan və bir müddətdir yolunu gözlədiyim gələcəkdə elm adamı olması gözlənilən uşaq olmalısan. Xoş gəlmisən. Gəl, səni həyatın boyu görə biləcəyin ən yaxşı kitabxanaya aparım. Xahiş edirəm, bu tərəfdən buyur.



Əl-Xarəzmi cəbr kitabını yazan və Qərb dünyasına cəbr elmini öyrədən böyük alimdir.

Bu kübar təklif ürəyimin şiddətlə döyünməsinə səbəb olmuşdu. Həmin anda dilimin tutulduğunu hiss etdim və onun təklifini başımı bulayaraq təsdiq etdim.

Dəvəyə minərək yola düşdük. Ömrümdə ilk dəfə dəvəyə

minirdim, qəribə amma gözəl təcrübə idi. Bir bazardan keçirdik. Satılan əşyaların arasından keçib ağır-ağır irəliləyirdik. Ədviyyatların, parçaların, kilimlərin və müxtəlif ərzaq məhsullarının satıldığı bazarın içindən keçirdik. **BAZAR HEYRƏTAMİZ DƏRƏCƏDƏ BÖYÜK İDİ.** Bir ara fikirləşdim ki, nə qədər getsək də bazar qurtarmayacaq. Ətrafda ticarətlə məşğul olan insanlar və sağa-sola qaçışan uşaqlar vardı. Baş verənləri dərk eləməkdə çətinlik çəksəm də yavaş-yavaş mühitə öyrəşməyə başlamışdım. Tarixin tozlu səhifələrindən çıxmış kimi görünən bu göz oxşayan mühit, bazar və bütün bu insanlar mənə çox maraqlı görünürdülər.

Nəhayət bazarın sonuna çatdıq. Bazarın qapısının qarşısında məscidə bənzəyən, baxanın gözlərini qamaşdıran möhtəşəm bir saray vardı. İndiyə qədər gördüyüm ən fərqli, ən böyük və ən gözəl bina budur, qarşımdaydı.

Sarayın yanından keçdikdən sonra, sarayın təəssüratından ayrılmamış qəfildən dəvə dayandı və yerə çökdü. Əl-Xarəzmi dəvədən düşdü sonra da mənim düşməyimə yardım etdi. Daha sonra dəvəni sakitləşdirib



bir tərəfə bağladı və mənə tərəf çevrilib danışmağa başladı:

- SƏNİNLƏ BU QƏDƏR YOL GƏLDİK, AMMA HEÇ TANIŞ OLMADIQ. DANIŞMAĞI, İNSANLARLA ÜNSİYYƏT QURMAĞI YOXSA SEVMİRSƏN?

Mən də ona belə cavab verdim:

- MƏNİM ADIM ÖMƏRDİR. İNSANLARLA ÜNSİYYƏT QURMAĞI SEVİRƏM AMMA BURAYA İLK DƏFƏ GƏLDİYİM ÜÇÜN BİR AZ

ÇƏKİNİRƏM. ÇƏKİNGƏNLİYİMİ BAĞIŞLAYIN. O QƏDƏR GÖZƏL BİR MÜHİTƏ DÜŞMÜŞƏM Kİ, NƏ EDƏCƏYİMİ BİLMİRƏM. MƏNİ BURAYA GƏTİRDİYİNİZ ÜÇÜN SİZƏ ÇOX TƏŞƏKKÜR EDİRƏM.

Verdiyim cavabdan sonra Əl-Xarəzmi şəfqətlə başımı oxşadı və dedi:

- Əstəğfürullah, önəmli deyil övladım. Adın da çox gözəldir. Sən bu yerlərdə yadsan, gəl sənə buraları göstərim. Bəlkə, həyəcanın keçər.



Əl-Xarəzmi "Beytul-Hikmət" adlı elm və tədqiqat mərkəzinin idarəçiliyini etmişdir.

Həyəcanla başımı buladım, qulaqlarımı açıb diqqətlə qulaq asmağa başladım.

- **BU GÖRDÜYÜN YERİN ADI "BEYTUL-HİKMƏT"DİR, YƏNİ HİKMƏTLƏR EVİ. BURA ELMİN MƏRKƏZİDİR. ABBASİLƏRİN TƏSİS ETDİYİ BAĞDADIN, HƏTTA İSLAM DÜNYASININ ƏN BÖYÜK KİTABXANASI, MƏDRƏSƏSİ, RƏSƏDXANASI, ELM VƏ TƏDQİQAT MƏRKƏZİDİR.** Burada yüzlərlə insan müxtəlif mövzular üzərində təhsil alır və tədqiqatlar aparırlar. Burada dünya səviyyəsində yüzlərlə alim müxtəlif elm sahələrində tədqiqatlar aparır və fəaliyyətlə məşğul olurlar. Məsələn, mənim və dostlarımın burada vəzifəmiz var.

Təəccüblə söhbətə qarışdım:

- **SİZ BURADA İŞLƏYİRSİNİZ?**

Əl-Xarəzmi gülümsəyərək cavab verdi:

- Bəli, hətta bu yer mənim ikinci evim sayılır.

- Siz hansı mövzularda fəaliyyət göstərirsiniz? Yoxsa siz də alimsiniz?

- **SIFIRA** görə bəli, mənə görə xeyr.



Çaşmışdım. **O NƏ DEMƏK İDİ?**

- Başa düşmədim.

- Yəni mən **SIFIRI** kəşf etməmişdən əvvəl insanlar ona **"HEÇ"** gözüylə baxırdılar. Sıfırın bir adı yox idi. Mən ona bir ad verdim. O da məni alim etdi.

**ƏL-XARƏZMİ ELMƏ VERDİYİ TÖHFƏLƏRLƏ BÖYÜK BİR DAHİ OLDUĞUNU BÜTÜN DÜNYAYA SÜBUT ETMİŞDİR.**

- Doğrudan? **SIFIRI** kəşf edən o alim sizsiniz?

Əl-Xarəzmi təvazökarlıqla gülümsəyərək başnı buladı.

Bu cavab məni daha da həyəcanlandırdı. Çünki fərqli bir alimlə tanış olurdum. Onların həyatı, xarakterləri, söhbətləri, zövqləri həmişə mənim üçün maraq mövzusu olmuşdur. Dalbadal suallar verməyə başladım:

- Bəs başqa nəylə məşğulsunuz? Bir az özünüz barədə danışa bilərsiniz? Gələcəyə işıq tutacağını fikirləşdiyiniz işləriniz hansıdır?

Əl-Xarəzmi söhbət edərək girdiyimiz mədrəsənin həyətində bir küncdə oturub danışmağa başladı:





- **MƏN COĞRAFİYA, ASTRONOMİYA VƏ RİYAZİYYAT** sahəsində tədqiqatlar aparıram. Əsasən də **RİYAZİYYAT** sahəsində **CƏBR** ilə maraqlanıram. Sənin gələcəkdə öyrənəcəyin bəzi tənlikləri və qaydaları da isbat etdim. Bu isbatları "Cəbr və Müqabilə" kitabımda qeyd etdim. Bu tənliklərin bir tərəfindəki riyazi kəmiyyətin digər tərəfə necə keçirilməsinin qaydasını **"CƏBR"** adlandırdım.



Buna misal kimi portağalları tərəzinin bir gözünə, eyni çəkidəki ağırlığın tərəzinin digər gözünə qoyulmasını göstərə bilərik. Bunu ixtisar edərək sadələşdirmənin adını

da **"MÜQABİLƏ"** qoydum. Hər iki tərəfdən də eyni miqdarda ağırlığı götürəndə tərəzinin tarazlığının pozulmaması kimi. Tənliyin bərabərliyi də belədir. Buna görə mənə **CƏBR VƏ ALQORİTMİN BANİSİ** deyirlər. Ümidvaram ki, izah edə bildim.



Əl-Xarəzminin danışdıqları qarşısında ağzım bir qarış açıq qalmışdı. Yenə də daxilimdən gələn öyrənmə həvəsi ilə çəkinərək mənasını bilmədiyim alqoritmin nə olduğunu soruşdum. Bu sualdan sonra Əl-Xarəzmi bilməməyin deyil, öyrənməməyin ayıb olduğunu və bilmədiyim bir şeyi soruşmaq cəsarəti göstərdiyim üçün bu kəşf səyahətinə layiq görüldüyümü dedi və məni təbrik etdi. Daha sonra izah etməyə başladı:

- Alqoritm, müəyyən bir məsələni həll etmək və ya müəyyən bir məqsədi əldə etmək üçün tərtib etdiyim bir üsuldur.

- NECƏ YƏNİ, BAŞA DÜŞMƏDİM. BİRAZ DAHA AÇIQLAYA BİLƏRSİNİZ?

- Misal üçün; tutaq ki, acdın və çörək almaq üçün evdən çıxacaqsan. Sənin üçün belə bir alqoritm yarada bilərik:

1. PUL KİSƏNİ GÖTÜR
2. AYAQQABILARINI GEYİN
3. ÇÖRƏK BİŞİRƏN TAP
4. ÇÖRƏK YOXDURSA — 3-CÜ ADDIMA QAYIT
5. PULU ÖDƏ
6. BİR DİŞLƏK AL
7. ÇÖRƏK QURTARANA QƏDƏR — 6-CI ADDIMI TƏKRAR ET.

Həyatımda ilk dəfə eşitdiyim bu qəribə oyun çox xoşuma gəlmiş və diqqətimi cəlb etmişdi.



ƏL-XARƏZMİ AVROPAYA YENİ HESAB ÜSULLARINI VƏ ONUN ADI VERİLƏN ALQORİTM HESAB METODUNU ÖYRƏTMİŞDİR.

– Çox əyləncəli görünür, – dedim. Reaksiyam Əl-Xarəzminin xoşuna gəldi və səmimiyyətlə gülümsədi. Bir müddət səssizlik oldu. Yanımda oturan şəxsin elmi nailiyyətlərinə heyran olmuşdum. Deməli, adını ilk dəfə eşidəndə tanış gəlməsinin səbəbi kəşfləri imiş. Mən də onun icadlarını yeni kəşf edirdim. Ona görə də, bir daha öyrənmək istədim.

– **BAŞQA NƏLƏR ETMİSİNİZ, BİR AZ DAHA DANIŞARSINIZ?**

Əl-Xarəzmi məni dərindən süzdü və danışmağa davam etdi:

– Övladım, insan ömrü boyu gördüyü işləri bir söhbətə sığışdıra bilməz, – dedi və oturduğu yerdən ayağa durub

davam etdi:

- **HİKMƏTLƏR EVİNİ GƏZMƏYƏ KİTABXANADAN BAŞLAMAĞA NƏ DEYİRSƏN?**



ƏL-XARƏZMİ BÖYÜK BİR RİYAZİYYATÇI OLDUĞU QƏDƏR, HƏM DƏ BÖYÜK BİR ASTRONOM İDİ.

- Olar deyib həvəslə ayağa durdum. Mənə uzatdığı əlini tutdum və birlikdə yeriməyə başladıq. Bu yaşadıqlarım necə də möhtəşəmdir. Heyran olduğum alimin əlindən tutmaq hər şeyə dəyərdi.

Ətrafda olan yaşıl ağaclar və rəngbərəng çiçəklər, sakitliyin hökm sürdüyü bir evin həyatində olma hissi verirdi. Özümü o qədər yaxşı hiss edirdim ki, bunu ifadə edə bilmirəm. Pəncərələrin kölgəsi çəmənlərin üstünə düşürdü. Göyə doğru uzanan bu pəncərələr elə bil yaşlı müdrik adamın sükunətli baxışlarını xatırladırdı. Həyatin kilidi kimi görünən, zərif daşlarla bəzədilmiş giriş qapısı içəri barədə





marağımı daha da artırırdı.

Əl-Xarəzmi kitabxananın qapısını açdı və qarşımıza uzun, sanki sonsuz bir dəhliz çıxdı. Dəhlizin sağında və solunda taxtadan hazırlanmış hündür kitab şkafları vardı. Hər şkafın dəhliz tərəfdə olan sütunları tağ şəklində tavanda birləşirdi. Hər sütunun ortasından asılmış neft lampaları içərini zəif işıqlandırırdı. Elə bil, kitablar lampa ilə aydınlanmağı işarə edirdi.



HİND RİYAZİYYATINI ƏN XIRDA DETALINA QƏDƏR TƏDQİQ EDƏN VƏ QƏRB DÜNYASINA TANIDAN ƏL-XARƏZMİ OLMUŞDUR.

**ELƏ BİL, MİNLƏRLƏ KİTABIN VƏ YÜZLƏRLƏ İNSANIN OLDUĞU BU MƏKANDAKI HƏR KİTABIN, HƏR RƏFİN, HƏR STOLUN VƏ HƏR STULUN ÖZÜNƏMƏXSUS AYRI BİR QOXUSU VƏ HEKAYƏSİ VARDI.** İçəriyə girdiyimiz anda bu qoxu mənə elə təsir etdi ki, heç yadlıq hiss etmədən, özümü doğma bir yerdə olduğu kimi hiss edirdim. Elə təsirləndim ki, özüm də



Əl-Xarəzmi Bağdad və Suriyada iki rəsədxana qurdurmuş, uzun illərin zəhməti nəticəsində “Ziyci- Əl-Xarəzmi” adlı ulduzların hərəkətini müəyyən edən məşhur ulduz kataloqunu hazırlamışdır.


1 2 3 4 5 6
7 8 9 0

Dünyadakı ən qədim triqonometriya cədvəllərinin tərtib edilməsi Əl-Xarəzmiyə məxsusdur.

təəccübləndim.

Sanki hər kitabı sevməyən, yaşadığım şəhərdəki kitabxananın bəzən cansıxıcı olduğunu fikirləşən mən deyildim. Amma daha əvvəl belə kitabxana görsəydim, düşüncələrim dəyişərdi. Belə isti, belə ecazkar, belə böyük və belə zəngin kitabxana...

Mən bu düşüncələrə dalmışkən Əl-Xarəzmi bir rəfin qarşısında dayanıb qalın bir kitabın arasından köhnə bir səhifə çıxardaraq mənə göstərib oxumağa başladı:

– ÖMƏR, DEYƏSƏN VİDALŞMAQ VAXTIDIR. SƏNİNLƏ TANIŞ OLMAQ ÇOX YAXŞI İDİ. BURADA YAŞADIQLARINI VƏ GÖRDÜKLƏRİNİ, BU MƏKANLARI UNUTMA. BU ELM SƏYAHƏTİNİN SƏNƏ XƏYAL EDƏ BİLMƏYƏCƏYİN QƏDƏR ÇOX ŞEY ÖYRƏTMƏSİ VƏ KƏŞF ETDİRMƏSİ TƏMƏNNASI İLƏ... TƏƏSSÜF Kİ, MƏNİM VƏZİFƏM BURAYA QƏDƏRDİR. BUNDAN SONRAKI FƏALİYYƏTLƏRİNDƏ

SƏNƏ UĞURLAR ARZULAYIRAM. ƏLVİDA.

Əlindəki səhifədən qopardığı parlaq ulduzu yaxama yapışdırdı.



– BU DA MƏNDƏN SƏNƏ BİR XATİRƏ...

ƏL-XARƏZMİ 69 ALİMLƏ ƏMƏKDAŞLIQ EDƏRƏK COĞRAFİYA ENSİKLOPEDİYASI HAZIRLAMIŞ VƏ XƏLİFƏ MƏMUNA HƏDİYYƏ ETMİŞDİR.

Hədiyyə almağın xoşbəxtliyi ilə əlimi yaxamdakı ulduza apardım və bir anda özümü yenidən hər şeyin başladığı yerdə, çardaqdakı ulduzlu qutunun yanında gördüm.

Deyəsən, macəram da burada başa çatmışdı. Həsrətli bir təbəssümlə əvvəl ulduzlu xəritənin, sonra da ulduzlu qutunun qapanmasını izlədim. Növbəti səyahət kim bilir nə vaxt və haraya olacaq? SONRA BABAMIN DEDİKLƏRİ YADIMA DÜŞDÜ. ƏVVƏLCƏ, BU ELM SƏYAHƏTİNDƏ ÖYRƏNDİKLƏRİMİ ZEHNİMDƏ "HƏZM EDƏCƏK", DAHA SONRA YENİ BİR ZAMAN SƏYAHƏTİNƏ ÇIXACAQDIM.



Bundan sonra mən səyahət vaxtı tanış olduğum Əl-Xarəzmini və onun fəaliyyətlərini fikirləşdim. Həm də elə yaxşı adam idi ki, mənə hədiyyə də vermişdi. Görəsən ərmağanım hələ də yaxamda idi? Başımı önə əyib əlimi sinəmdəki ulduza apardım. Çox şükür hələ də oradaydı. Bu kiçik ərmağan indiyə qədər aldığım ən mənalı hədiyyə idi. Onu əlimə götürdüm, oxşadım və başımı qaldırıb çardağın kiçik pəncərəsindən ümid və fəxrlə göy üzünə baxdım.









## ÖZÜMÜ DƏYƏRLƏNDİRİRƏM

### A. AŞAĞIDAKI SUALLARA UYĞUN OLAN DÜZGÜN CAVABI VERƏK.

1. Ömərin Əl-Xarəzmi ilə qarşılaşmaq üçün çıxdığı zaman səyahətində xəritədəki ulduz hansı şəhərin üstündə parlamışdı?

A) Qahirə B) Qurtuba

C) Bağdad D) Dəməşq

2. Əl-Xarəzminin fəaliyyət göstərdiyi "Hikmətlər Evi" mənasına gələn məkanın adı nədir?

A) Qurtuba sarayı B) Beytul-Hikmət

C) Tac Mahal D) İskəndəriyyə kitabxanası

3. I Kitabxana

II Mədrəsə

III Rəsədxana

Yuxarıda göstərilən məlumatlardan hansıları "Beytul-Hikmət"də yer almışdır?

A) I və II B) II və III

C) I və III D) I, II və III

4. Əl-Xarəzminin dünya elminə töhfəsi aşağıda göstərilənlərdən hansı ilə ifadə edilmişdir?

A) Kimyanın banisi
B) Alimlərin hökmdarı
C) Cəbr və alqoritmin banisi
D) Göy üzündə uçan adam

5. Aşağıdakı əsərlərdən hansı Əl-Xarəzmiyə aiddir?

A) Cəbr və Müqabilə
B) Qanun
C) Şəms
D) Şəfa

**B. AŞAĞIDA YAZILAN CÜMLƏLƏRDƏN DOĞRU OLANLARIN ƏVVƏLİNƏ D, SƏHV OLANLARIN ƏVVƏLİNƏ S YAZAQ.**

1. ( ) Sıfırı ilk dəfə kəşf edən alim Əl-Xarəzmidir.

2. ( ) Alqoritm, müəyyən bir məsələni həll etmək və ya müəyyən bir məqsədi əldə etmək üçün tərtib edilən bir üsuldur.

3. ( ) Əl-Xarəzmi ədəbiyyat sahəsində dünyada məşhur olan müsəlman alimdir.

4. ( ) Beytul-Hikmətdə elmi fəaliyyətlər aparılırdı.

5. ( ) Əl-Xarəzminin riyaziyyat, coğrafiya və astronomiya sahəsində elmi tədqiqatları olmuşdur.

## C. AŞAĞIDAKI SÖZLƏRİ MÜVAFİQ CAVABLA BİRLƏŞDİRƏK.

1. Əl-Xarəzminin yaşadığı şəhər
2. Riyaziyyatda ixtisar yolu ilə sadələştirmənin adı
3. Sıfırı kəşf edən alim
4. Bir tənliyin yanındakı riyazi kəmiyyətin digər tərəfə keçirilməsinə Əl-Xarəzminin verdiyi ad
5. Beytul-Hikmət

a. Müqabilə

b. Əl-Xarəzmi

c. Hikmətlər evi

d. Bağdad

e. Cəbr

## D. DÜŞÜNƏK VƏ YAZAQ

1. Əl-Xarəzminin elmi araşdırmaları dövrümüzdə hansı sahələrə ilham mənbəyi olmuşdur?

..................................................................................

..................................................................................

2. Əl-Xarəzmi ilə tanış olsaydın, ona hansı sualları verərdin?

..................................................................................

..................................................................................

3. Əl-Xarəzmini tərif edəcək üç cümlə qursaydın, bunlar necə oardı?

..................................................................................

..................................................................................

4. Əl-Xarəzminin alqoritminə bir nümunə göstər.

..................................................................................

..................................................................................

5. Əl-Xarəzminin vəzifəli olduğu "Beytul-Hikmət"in içində hansı memari binalar vardı?

...................................................................................

...................................................................................

...................................................................................

...................................................................................

...................................................................................

...................................................................................

...................................................................................

...................................................................................